# Ziyad Səmədzadə: "Milli iqtisadiyyatımızın böyük inkişaf imkanları vardır"




*Yanvarın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yerli televiziya kanallarına verdiyi müsahibə ilə bağlı millət vəkili, akademik Ziyad Səmədzadə yanvarın 27-də Dünya TV-nin "DTV Aktual" verilişinə müsahibə vermişdir. Müsahibəni diqqətinizə çatdırırıq.*

**- Ziyad müəllim, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları ənənəvi olaraq ilin əvvəlində yerli televiziyalara müsahibə verdi. Artıq ilin ilk ayı sona çatır və istərdim bu mövzuya toxunaq. Hər ilin əvvəlində cənab prezident yerli jurnalistlərlə görüşür və müsahibə verir. Söylədiyi fikirlər, verilən mesajlar, gedən proseslər, bütün bunlar haqqında cənab prezident ətraflı danışır. Diqqətlə izləyirik. Bir dəfə yox, dəfələrlə izləyirik və qürurlanırıq. Qürurlanırıq ki, ilbəil biz ancaq və ancaq irəli gedirik və uğurlara imza atırıq. Buyurun, sizi dinləyək.**

- Əvvəla, dəvətinizə görə təşəkkürümü bildirirəm.

Ötən ilin yekunları barədə mən çox böyük sevinclə, qürurla danışmaq istəyirəm. Bu təkcə mənim fikrim deyil. Azərbaycanda yaşayan, Azərbaycana xidmət edən hər bir ziyalının, hər bir ictimai xadimin, hər bir sadə insanın arzusudur.

Siz haqlı olaraq bildirdiniz ki, ildənilə cənab prezident ilin yekunlarından danışarkən müsbət fikirlər, nəticələr çox olur.

Demək olar ki, dünyanın hər bir ölkəsində, hər bir kəndində, hər bir ailəsində insanlar çalışırlar ki, il başa çatdıqdan sonra əldə etdiyi nəticələri qiymətləndirsinlər.

Cənab prezidentin Azərbaycan xalqı qarşısında tarixi xidmətləri çox böyükdür.

Bəli, əbədiyaşar liderimiz var. Bu əbədiyaşar lider ildən-ilə Azərbaycan dövlətinin iqtisadi gücünün, siyasi gücünün, beynəlxalq aləmdə hörmətinin artması üçün titanik, məhsuldar fəaliyyət göstərir.

Mən hər il cənab prezidentin çıxışlarını, ilin yekunlarına həsr olunmuş fikirlərini dinləyirəm və qürur hissi keçirirəm ki, 2025-ci ilin nəticələri əvvəlki illərdən xeyli yüksək oldu.

Bu, ilk növbədə onunla əlaqədardır ki, artıq Azərbaycan özünün 25 illik suverenliyini qeyd etdi.

Tam suverenliyindən söhbət gedir. Azərbaycan qalib ölkə kimi xalqa hesabat verdi. Azərbaycan dövləti qalib ölkə kimi dünya miqyasında özünün gücünü artırdı.

XXI əsrin dörddə bir hissəsi qaldı arxada.

Bu 25 ilin ən uğurlu nəticəsi 2025-ci ildə oldu.

Nə üçün? - Biz suverenliyimizi də, müstəqilliyimizi də qeyd etdik. konstitusiya hüquqlarımızın da yubileyini qeyd etdik. Bu illər ərzində Azərbaycan iqtisadiyyatı gücünü xeyli artırdı. 2025-ci ildə Azərbaycanın nəzərdə tutduğu iqtisadi strateji layihələr uğurla həyata keçirildi. "Böyük qayıdış" proqramı çərçivəsində nəzərdə tutulmuş bütün işlər uğurla reallaşdırılır. Ölkə qısa zaman kəsiyində erməni vandalizminə məruz qalmış torpaqlarımızın çiçəklənməsi üçün nə qədər böyük işlər gördü. Cənab prezident həm daxili, həm xarici siyasət, həm beynəlxalq aləmdə nüfuzumuzun artmasından danışdı, həm də qeyd etdi ki, biz qloballaşma şəraitində yaşayırıq.

***İldən-ilə qlobal təhdidlər genişlənir. Dünya ölkələri arasında konfliktlər artır. Artıq dünyada bu gün 100-dən çox konflikt var. Amma Azərbaycan sakit, sabit, təhlükəsiz ölkə kimi öz uğurlarını davam etdirir. Media nümayəndələri ilə görüşdə fikir verdiniz ki, bir çox məsələlər xarici siyasətlə bağlı oldu.***

Bəli, bu gün Azərbaycan dövlətinin apardığı uğurlu xarici siyasət beynəlxalq aləmdə böyük nüfuz qazanmışdır.

2025-ci ilin avqustunda cənab prezidentin Trampla Vaşinqtonda baş tutan tarixi görüşündə sənədin imzalanmasından sonra həm bizim ölkədə, eləcə də vaxtilə bizə düşmənçilik siyasətindən əl çəkməyən qonşu ölkədə əmin-amanlıq hisslərinin genişlənməsi, sülhə xidmət edən tədbirlərin genişlənməsi Azərbaycan dövlətinin apardığı uğurlu siyasətin nəticəsidir.

***2025-ci ilin yekunları göstərdi ki, Azərbaycan beynəlxalq aləmdə böyük nüfuza malik olan bir liderdir. Dünyada həmişə qütblər olub: böyük qütblər, zəif ölkələr.***

İndi dünyanın iri qütbləri bir-biri ilə çox gərgin rəqabət mübarizəsi aparır. Bu rəqabət mübarizəsinin də ana xəttini o təşkil edir ki, bu və ya digər böyük ölkə, lider ölkə daha çox gücə malik olsun. Ona tabe olan ölkələrin sayı artsın. Onun diktəsi ilə hərəkət edən qüvvələr çoxalsın. Baxın, Ukrayna-Rusiya müharibəsi, Amerika ilə digər Avropa ölkələri arasında ziddiyyətlərin artması nəyi göstərir? Tox və ac dünya nisbətlərini qoruyub saxlamaq istəyirlər.

İri dövlətlər həmişə kasıb ölkələrin hesabına varlanıblar. iri ölkələr həmişə zəif ölkələrə böyük gəlir mənbəyi kimi baxıblar. Mən XX əsrin 60-cı illərinin axırlarında "Tox və ac dünya" adlı bir yazı yazmışdım. Deməli, XX əsrin 70-ci illərində kasıb ölkələrlə varlı ölkələr arasında yaşayış səviyyəsinə görə nisbət digər xoşbəxtlik indeksinə görə nə qədər idisə, bu gün də həmin nisbət qalıb. Nə üçün? Qloballaşan dünyada iri dövlətlər öz mənafelərini qoruyub saxlayıblar. O mübarizə bu gün də davam edir və bu mübarizə kontekstində Azərbaycanın uğurları, göz qabağındadır. Azərbaycanla bir dövlət, müstəqil dövlət kimi razılaşmaq adi məsələ deyildir.

***Bunların kökündə bizim cənab prezidentin apardığı müstəqil iqtisadi təhlükəsizliyi təmin edən siyasət durur. Ona görə biz bu gün güclüyük. Ona görə 2025-ci ildən sonrakı bir ay ərzində görün nə qədər proseslər başladı. Biz dünya ölkələri içərisində nüfuzumuzu artırmış olduğumuzu görürük.***

Davos forumu dünya miqyasında beynəlxalq forumdur. Cənab prezidentə orda olan hörməti, münasibəti hamımız gördük. Cənab prezidentin Trampla görüşünü, vaxtilə Azərbaycana çox qısqanclıq hissi ilə yanaşan Avropa ölkələrinin digər rəhbərlərinin münasibətini gördük.

Vaxtilə Azərbaycana qarşı çox təzyiqlər ediblər. Amma indi Ulu öndər Heydər Əliyevin apardığı siyasət, cənab prezidentin bu siyasəti layiqlə davam etdirməsinin nəticəsi göz qabağındadır.

Bunu nəinki biz, - bütün dünya görür. Nə üçün? Biz Şərqlə Qərb arasında yerləşən bir ölkəyik.

Strateji bir məkanda yerləşirik. Tarix boyu dövlətlər müharibələri başlayıblar yolları zəbt etmək üçün.

Strateji yolda yerləşən ölkə daha sürətlə inkişaf edir. İmkanları böyükdür, bazarı böyükdür. Bunu biz gündəlik həyatımızda sübut edirik də.

Yaxın Şərqlə Qərb arasında strateji məkanda yerləşən Azərbaycanda siyasi sabitlik olmasaydı, Azərbaycan təhlükəsiz bir dövlət olmasaydı, burda əmin-amanlıq olmasaydı, bu dəyişikliklər olmasaydı, bizimlə heç kim hesablaşmasaydı, nə baş verərdi?

Biz qədim İpək Yolunu artıq çəkirik. Cənab prezident elan etdi ki, heç bir şeydən asılı olmayaraq, biz Zəngəzur dəhlizini istifadəyə verəcəyik. Görün, nə qədər böyük işlər görürük. Bu dəhliz və Azərbaycanın mövqeyi bizə imkan verir ki, Türkiyə, Cənubi Qafqaz, Şimal, Cənub, Şərq - hamısı Azərbaycanla əlaqələri möhkəmləndirsin. Bütün bunların kökündə Azərbaycan dövlətinin siyasəti durur.

Baxın, dünyanın ayrı-ayrı ölkələri var ki, bizdən də çox neft ehtiyyatlarına sahibdirlər. Bizdən də çox təbii resursları var. Amma buna baxmayaraq, dövlətimiz elə bir siyasət aparır ki, dünyanı belə mat edir. Bəli, necə deyərlər, yaxşı mənada təəccübləndirir.

Axı biz bilirik ki, hər bir dövlətin daxili problemləri də var, xarici problemləri də var. Əgər mən bu gün dünyada özümü qorumuşamsa, mənə hücumlar ola bilməz.

Mən iqtisadi gücümü artırmışamsa, siyasi gücümü artırmışamsa, beynəlxalq aləmdə nüfuzumu artırmışamsa, bunlar hamısı xərclərdir. Bizim güclü büdcəmiz olmasaydı, güclü iqtisadiyyatımız olmasaydı, biz ordumuzu gücləndirməsəydik, Qarabağı azad edə bilərdik? Bəzən ola bilər problemlər var. Hər yerdə problemlər var. Mən də o problemlərin insanların xeyrinə tezliklə həll olunmasını istəyirəm. Amma reallığı nəzərə almaq lazımdır. Biz müharibədən çıxmışıq. Bir var ki, tapdalanasan, ayaqlar altında qalasan. Bir də var ki, bu qədər güc strukturları qarşısında alnı açıq dayanasan.

Bəli. Bunlar xərc tələb edir.

Ordu yaratmalıyıq. Müasir silahlarla silahlanmalıyıq. Kadrlar hazırlamalıyıq. Sərhədlərimizi qorumalıyıq. İşğaldan azad olunmuş ərazilərimizi qurmalıyıq.

Ona görə də, burada müəyyən çətinliklər ola bilər.

Hazırda "Böyük qayıdış" proqramı həyata keçirilir. Bir milyondan yuxarı qaçqın, köçkün öz doğma yurdlarına qayıdır. Bəs indi həmin insanların oraya qayıdışı üçün biz nə etməliyik? Biz bu proqram çərçivəsində prosesin birinci mərhələsində daha diqqətli olmalıyıq. İnsanlar köçməlidir. Əvvəllər onların binaları vardı, məktəbləri, bağçaları, müəssisələri, kolxozları, sovxozları vardı. Hamısı dağılıb. İndi orda bunları bərpa etmək üçün bizə pul lazımdır.

Bərpa etmək dedikdə yeni şəhərlər, yeni kəndlər, müasir məktəblər, idarələr, bunların hamısı bu günün tələblərinə cavab verməlidir.

Bəli. Bir var ki, aparıb bina tikirsən adi. Bir də var ki, müasir enerji təchizatı ilə əlaqədar olaraq bütün işləri görürsən. Mən vaxtilə dağ rayonlarının iqtisadiyyatı ilə əlaqədar olaraq bir proqramın hazırlanmasına Ulu öndər Heydər Əliyevin tapşırığı ilə, sonrakı rəhbərliyin tapşırığı ilə proqram hazırlamışam. Biz qarış-qarış o rayonları gəzmişik. Baxırsan indi Kəlbəcərdə tikilmiş evlərə, Laçında tikilmiş evlərə, onların enerji təminatına.

Qışın bu vaxtında otaqlar hamısı istidir.

Bu gün cənab prezidentin qarşıya qoyduğu vacib vəzifələrdən biri "Böyük qayıdış" proqramıdır. 25 milyard manatdan çox pul xərclənib.

Heç bir dövlət bunu öz hesabına edə bilməzdi.

Biz heç kimdən borc almamışıq, heç kimə müraciət etməmişik. Bəziləri deyirlər ki, Marşal planı verək, iqtisadiyyatlarını bərpa etsinlər. İkinci Dünya müharibəsindən sonra Avropa ölkələrinə Marşal planı ilə köməklik göstərilmiş, iqtisadiyyatları bərpa edilmişdi. Boş şeydir. Bu cür insanların milli maraqlar barədə düşünmələri çox səhv fikirdir. Yəni, biz gərək milli maraqlarımızı qorumaqla, milli dəyərlərimizi qorumaqla, hər bir regionun spesifik xüsusiyyətini nəzərə almaqla baş planlar təsdiq etdik.

**- Elə buna görədir ki, dünyanın da marağı Azərbaycana yönəlib. Yəni, Azərbaycanın daxilində gedən proseslər, Qarabağımızda görülən işlər, öz hesabımıza qurulan şəhərlərimiz, kəndlərimiz, eyni zamanda gedən işlər, bununla bərabər aparılan xarici siyasət, güclənən ordumuz, güclənən iqtisadiyyatımız, bunların hamısını dünya görür. Ona görə də dünyanın marağı Azərbaycana yönəlir.**

**Bu gün Azərbaycan dünyada aktor dövlətdir. İlham Əliyev və Azərbaycan. Onlar bir səslənir. Necə ki, hər zaman Heydər Əliyev və Azərbaycan söyləyirdik. Bu gün də deyirik, - İlham Əliyev və Azərbaycan. Bu gün Azərbaycanın irəli getməsində, dünyada tanınmasında cənab prezidentin böyük bir rolu var.**

- Çox... Heç şübhəsiz, mən bir azərbaycanlı kimi, özümü xoşbəxt hesab edirəm. Çünki bir iqtisadçı kimi Azərbaycan dövlətinin inkişafının bütün əsas mərhələləri barədə mənim kifayət qədər informasiyam var. Amma son 25 il məzmununa görə, mahiyyətinə görə, əhatə dairəsinə görə heç bir mərhələ ilə müqayisə oluna bilməz. Hazırkı Azərbaycan Ulu öndər Heydər Əliyevin arzuladığı Azərbaycandır.

Bünövrəsi də məhz Ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur.

Siz təsəvvür edin ki, 1993-cü ildə, mən bunu bir neçə dəfə demişəm, kasıblığın, işsizliyin yüksək olduğu mərhələdə, daxili vəziyyətin gərgin olduğu bir şəraitdə Heydər Əliyev insanları qaçqın və köçkünlərin məclisində Novruz bayramı münasibətilə təbrik edir və orada deyir ki, gün gələcək, biz bu bayramları işğaldan azad edilmiş rayonlarda keçirəcəyik.

Baxın, Ulu öndər Heydər Əliyevin uzaqgörənliyinə. Pulumuz yox, borc alanda da bunu ən ağır şərtlərə vermək istəyirlər. Güclü ordumuz yox, daxildə çəkişmələr, qarşıdurmalar, iri dövlətlərin Azərbaycana təzyiqlərinin artdığı bir şəraitdə Ulu öndər inamını itirmir. Bu gün həmin arzular yerinə yetirilib. Ata vəsiyyəti, ata arzusu həyata keçib.

Bəli, eyni zamanda mən səmimi deyirəm, qoy televiziya tamaşaçıları hiss etməsin ki, mən olan problemlərdən danışmıram. Problemlər də var. Cənab prezident o problemləri də deyib. Biz gərək sahibkarlarımızı qoruyaq.

Çox haqsız insanlar var ki, bu sahibkarları incidirlər, haqsız yoxlamalar aparırlar, haqsız cərimələr edirlər. Bunlar bağışlanmaz səhvlərdir. Bunları gərək aradan qaldıraq. Biz gərək sahibkarlar üçün şəraiti daha da yaxşılaşdıraq ki, onlar yerli istehsalımızı artırsınlar. Bu, Ulu öndərin ən böyük arzularından biri idi. O, arzulayırdı ki, biz daxili istehsalımızı artıraq, hər şeyi xaricdən gətirməyək. Yerlərdə zavod tikək, müəssisələr tikək, filiallar yaradaq.

Bütün bu arzular üçün də böyük işlər görülür. İndi texnoparklar yaradılır, sənaye məhəllələri yaradılır, regionların infrastrukturu həll olunub, Böyük qayıdış proqramı çərçivəsində artıq orda yeni müəssisələr tikilir, güzəştlər tətbiq olunur. Mən əminəm ki, biz bu prosesi uğurla başa çatdıracağıq.

Azərbaycan öz iqtisadi göstəricilərini ildən-ilə yaxşılaşdıracaq.

Müəyyən problemlər var. Neft istehsalı aşağı düşür.

Bu da təbiidir. Çünki neft qurtaran sərvətdir, daimi sərvət deyil. Qaz daimi sərvət deyil. Amma biz Ulu öndərin tapşırığı ilə, tövsiyəsi ilə, cənab prezidentin bilavasitə müdrik siyasəti ilə bu amillərdən də güclü istifadə edirik və eyni zamanda yaşıl energetika istiqamətində ağlasılmaz tədbirlər həyata keçiririk. Bir müddətdən sonra Azərbaycanın energetika balansında yaşıl energetika xeyli yüksək yer təşkil edəcək. Yəni, demək istəyirəm ki, 2025-ci il Azərbaycan tarixində əzəmətinə, əldə etdiyi nəticələrə görə möhtəşəm bir il kimi yadda qalacaq və 2025-ci ildə görülən işlər 2026-cı il və sonrakı illər üçün də əsas olacaqdır.

**- Düşünürəm ki, Ziyad müəllim, bu studiyada sizinlə tez-tez görüşəcəyik. 2026-cı ildə, yəni bu il və hər görüşümüzdə də qazandığımız uğurlardan danışacağıq, çünki uğur Azərbaycana yaraşır. Ətraflı müsahibəyə görə təşəkkürümü bildirirəm.**

**Mənbə:**
**YouTube kanalı: DunyaTv**